# Türk Dövlətləri Təşkilatına üzv ölkələr arasında əməkdaşlıq genişlənir

**Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova Türk Dövlətləri Təşkilatının (TDT) ailə və sosial siyasətdən məsul nazir və digər qurum rəhbərlərinin birinci iclasında iştirak edib.**



"Qloballaşan dünyanın risklərinə qarşı: Ailəmiz gələcəyimizdir" mövzusunda İstanbul şəhərində keçirilən iclasın məqsədi türk dünyası ölkələrində ailənin qorunması və gücləndirilməsi istiqamətində əməkdaşlığın inkişaf etdirilməsidir.

İclasda çıxış edən Bahar Muradova türk dövlətlərinin daha möhkəm birliyi naminə təşkilatın fəaliyyətinə uğurlar arzu edib.

300 milyona yaxın insanın yaşadığı geniş bir coğrafiyanı əhatə edən türk dünyasının bir yumruq kimi birləşməsinin gərəkli olduğunu vurğulayan komitə sədri onu da əlavə edib ki, vaxtilə Ümummilli Lider Heydər Əliyev tərəfindən bütün Zirvə görüşlərində bu mövzu gündəmə gətirilib. Bu gün isə Prezident İlham Əliyevin fəaliyyətində türkdilli ölkələr arasında birliyin və koordinasiyanın artırılmasına böyük səy göstərildiyinin şahidi oluruq.

Bölgədəki Türkiyə-Azərbaycan tandeminə diqqət çəkən B.Muradova Qarabağın baş tacı olan Şuşa şəhərində imzalanan Şuşa Bəyannaməsinin iki ölkə arasındakı qardaşlığı yeni bir mərhələyə qaldırmaqla yanaşı, bütövlükdə türk dövlətləri üçün də bir yol xəritəsi olduğunu deyib. Türk Dövlətləri Təşkilatının yalnız regional deyil, həm də daha geniş ərazi və ölkələrin maraq dairəsində olan çoxtərəfli əməkdaşlıq formatı kimi nüfuz qazandığını vurğulayan komitə sədri qurucu ölkələrdən biri kimi Azərbaycanın üzv və müşahidəçi ölkələrlə birgə məqsəd və qarşıdakı hədəflər uğrunda çalışdığını da əlavə edib.

O, TDT daxilində əməkdaşlığın əhatə dairəsinin genişləndirilməsi, bu sıraya ailə və sosial siyasət mövzusunun daxil edilməsilə kollektiv səyləri və müxtəlif əhali qruplarına xidmət sahələrini hədəfləyən mövzularda tərəfdaşlığın gücləndirilməsinin dəstəkləndiyinə diqqət çəkib.

Çıxışının sonunda Azərbaycanın bu il COP29-a evsahibliyi etməsinə diqqət çəkən B.Muradova, böyük türk ailəsinin sağlam təməllər üzərində möhkəmlənməsi işinə töhfə vermək məqsədilə həyata keçirilməsi nəzərdə tutulan təşəbbüslər barədə təkliflərini səsləndirib.

İclasda TDT-nin digər üzv və müşahidəçi dövlətlərinin çıxışları dinlənilib.

Yekunda Türk Dövlətləri Təşkilatının ailə və sosial siyasətdən məsul nazir və digər qurum rəhbərlərinin birinci iclasının Deklarasiyası qəbul edilib.

Sənəddə növbəti görüşün 2025-ci ildə Azərbaycanda keçirilməsi, eyni zamanda təklif edilən digər məsələlər öz əksini tapıb.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

Azərbaycan.- 2024.- 18 may. № 103.- S.9.